**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.41**

**SARA HACIYEVA**

# ORTA ƏSRLƏR DÖVRÜNDƏ NAXÇIVANDA ŞƏHƏR HƏYATI

*Məqalədə orta əsrlər dövründə Naxçıvanda şəhər həyatının inkişafından və formalaşmasından bəhs edilmişdir. Qeyd edilmişdir ki, bəhs edilən dövrdə Qafqazda mühüm ticarət yollarının kəsişməsində yerləşən Naxçıvan şəhəri bölgənin iqtisadi, mədəni və siyasi inkişafında mühüm rol oynamışdır. Bu dövrdə Naxçıvan bölgəsi ticarətin inkişafı baxımından Azərbaycanın digər bölgələrindən geridə qalmamış və əksinə xeyli irəli gedərək, Şərqlə-Qərbi, Şimalla-Cənubu birləşdirən və karvan yollarının kəsişmə nöqtəsində yerləşən mühüm bir məntəqə rolunu oynamışdır. Təbii ki, bölgədən keçən Beynəlxalq İpək yolunun da burada rolu az deyildi. XIII-XV əsrlər arasında Naxçıvan ticarət və mədəniyyət mərkəzi kimi çiçəklənmişdi. Naxçıvan şəhərində bazarların olması insanların bir mərkəzdə toplanmasına şərait yaradırdı. Şəhərləşmə bu minvalla formalaşırdı.*

**Açar sözlər:** *Naxçıvan bölgəsi, bazar münasibətləri, iqtisadiyyat, ticarət əlaqələri.*

**Giriş.** Orta əsrlər dövründə Naxçıvan bölgəsində şəhər həyatının formalaşmasında insanların təsərrüfat həyatında önəmli rol oynayan sənətkarlığın inkişafı, kənd təsərrüfatı məhsullarının ticarət bazarlarına cəlb edilməsi və bununla da şəhər həyatının əsas iqtisadi bazasının təşkili xüsusi rol oynamışdır. XIII-XV əsrlər dövrü Azərbaycanın digər bölgələrində olduğu kimi, qədim Naxçıvan diyarında da təsərrüfatın bütün sahələri inkişaf etdiyindən, ticarət və bazarların yaranmasına təsir göstərmişdir. Bəhs edilən dövrdə müxtəlif ticarət yollarının kəsişdiyi şəhərlərdə çoxlu sayda bazarlar, dükanlar, sənətkar emalatxanaları fəaliyyət göstərirdi ki, bu da iqtisadi baxımdan şəhərlərin mərkəzləşməsi üçün mühüm əhəmiyyət kəsb edir, əhalinin əldə etdiyi məhsulların alqı-satqısını genişləndirirdi. T. e. d. T.Dostiyev yazır ki, IX-X əsrləri Azərbaycan şəhərlərinin kiçik qala-şəhərlərdən iri siyasi-inzibati, sənətkarlıq-ticarət və mədəni-dini mərkəzlərə çevrilməsi dövrü hesab etmək mümkünsə, XI-XII əsrləri şəhər həyatının yüksəlişi, çiçəklənməsi dövrü adlandırmaq olar. İctimai əmək bölgüsü baxımından şəhər kəndin əksi olaraq, sənətkarlıq məhsulları istehsalı, ticarətlə bağlı əməyin və zehni əmək fəaliyyətinin cəmləşdiyi məkan idi. Orta əsrlərdə Azərbaycan şəhərlərinin inkişafının iqtisadi əsasını kənd təsərrüfatı, sənətkarlıq və ticarət təşkil edirdi [4, s. 317]. Təbii ki, bu cür təsərrüfat sahələrinin inkişafı və genişlənməsi şəhər həyatının formalaşmasına müsbət təsir edirdi.

**Şəhərlərin formalaşmasında sənətkarlığın rolu.** O dövrdə Azərbaycanın inkişaf etmiş şəhərlərində olduğu kimi, Naxçıvanda da sənətkarlar – əsnaflar sex (emalatxana) təşkilatlarında birləşirdilər. Təbii ki, sənətkarlıq sahələrinin yüksək səviyyədə inkişafı onların təşkilatlarının mərkəzləşməsinə gətirib çıxarmışdı. Əxilər emalatxana sahibləri və sələmçilərə qarşı mübarizə aparır, təşkilat üzvlərinə və başqa şəhərdə olan məsləkdaşlarına kömək etmək üçün vəsait toplayırdılar. Şəhər həyatındakı dəyişikliklər, sənət nümunələrinin inkişafı sənətkarların ictimai və siyasi rolunun nisbətən artmasına gətirib çıxarmışdı. Bəhs edilən dövrdə Azərbaycanda şəhərlərin əsas istehsaledici qüvvəsi sənətkarlar idi. Sənətkarlar əsasən üç qrupa bölünürdü: 1) fərdi fəaliyyət göstərən sənətkarlar, 2) xüsusi təşkilatlarda (əsnaflarda) birləşmiş sənətkarlar, 3) iri feodal emalatxanalarına (karxanalara) mənsub olan sənətkarlar [1, s. 282]. Sənətkarlar evlərdə işləməklə bərabər emalatxanalarda da işləyirdilər. Sənətkarlıq emalatxanaları, əsasən karvansara və bazarlarda yerləşirdi [10 s. 182]. Bəhs olunan dövrlərdə bazarların zahiri görkəmi şəhərdən asılı olaraq fərqlənirdi. Bazarlar qapalı (üstü örtülü) idi. Bazarlarla yanaşı, yarmarkalar da ticarətin ayrılmaz tərkib hissəsini təşkil edirdi. Topdansatış ticarəti ilə məşğul olan tacirlər yarmarkalarda görüşür və ən iri ticarət əməliyyatları burada aparılırdı. Bu isə təbii olaraq insanların bir mərkəzdə toplanmasına şərait yaradırdı. Şəhərləşmə bu minvalla formalaşırdı.

Bölgənin zəngin mədəniyyəti, gözəl sənətkarlıq malları, əla növ kənd təsərrüfatı məhsulları ilə diqqəti cəlb edən geniş bazarları buradan keçən yolçuları etinasız keçib getməyə qoymurdu. Bu işdə onlara yaşadıqları yerin Avropa ilə Yaxın Şərq ölkələrini birləşdirən Böyük İpək yolunun üzərində yerləşməsi də kömək edirdi. Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Culfa, Qarabağlar şəhərləri xüsusilə fərqlənirdilər. Təbii ki, bu ticarətlərin baş tutması üçün vacib olan məkan bazarların mövcud olması idi. Bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də daxili ticarətin təşkilində bazarlar mühüm yer tuturdu. Xüsusilə Novruz bayramı ərəfəsində Ordubad bazarı yarmarkaya çevrilirdi. Bazarlarla birlikdə mağaza və dükanlar şəbəkəsi də genişlənirdi.

Orta əsrlər dövründə Naxçıvan diyarında əhəmiyyətinə görə ikinci şəhər sayılan Ordubadda sənətkarlıq inkişaf etmişdi [3, s. 25]. Ordubadda boyaqçılıq, dəri aşılama və dulusçuluq başqa sənət sahələrinə nisbətən daha geniş yayılmışdı. Burada səkkiz dəri aşılayan dükan, iki keçəçi dükanı, bir boyaqxana və bir də dulusçu dükanı fəaliyyət göstərirdi. Ümumiyyətlə, Ordubad şəhərində otuz sənətkar dükanı var idi [3, s. 26]. Yerli əhalinin verdiyi məlumatlara görə, həmin sənətkarlar əsasən Ordubad bazarının yerləşdiyi ərazidə fəaliyyət göstərmişdir. Bazar ərazisində dükan və emalatxana sahəsi tutan hər bir sənətkar, xırda tacir, xüsusi sənət və ticarət vergiləri (dəzgahbaşı, toxucu pulu və s.) ilə yanaşı, şəhər əhalisinin aşağı təbəqəsi kimi digər vergiləri də verməli, mükəlləfiyyətlər daşımalı idi. Ticarətdə olduğu kimi, sənətkarlığın da mərkəzi bazar idi. Məhz buna görə sənətkar dükanlarının bir hissəsi bazarda cəmləşmişdi. XII əsrdə Naxçıvanda olan 1000 dükandan 450-si və bir neçə gön emalatxanası bazarda idi [12, s. 35]. Sənətkarların və tacirlərin bir bazarda cəmləşməsi yerli hakimlərin daxili siyasətinə uyğun gəlirdi. Çünki belə olduqda tacir və sənətkarlara dövlətin nəzarəti daha asan olur, fərdi sənətkarlar öz mallarını istədikləri kimi sata bilmir və vergi toplanması işi də asanlaşırdı [9, s. 105]. XI-XV əsrlərdə Azərbaycana səyahət etmiş bir çox xarici səyyahlar Azərbaycanın digər bölgələri ilə yanaşı, Naxçıvanda da xalça və parça toxunan emalatxanaların olduğunu bildirmişlər. Onların qeydlərinə görə, həmin dövrdə Azərbaycanda istehsal olunan bədii sənət nümunələri Qərbi Avropadakı sənət nümunələrindən yüksək səviyyədə olmuşdur [2, s. 89]. Toxuculuğun inkişafında pambıqçılığın mühüm əhəmiyyəti olmuşdur. Orta əsrlər dövrü Naxçıvanda pambıq, yun və barama istehsalı burada müvafiq parça toxuculuğuna şərait yaradırdı. Naxçıvanda pambıqçılıq inkişaf etdiyindən pambıq parçaların toxunmasına geniş yer verilirdi. Toxuculuq məhsulları əsasən ilk növbədə hər bir ailənin öz təsərrüfat-məişət tələbatını ödəyirdi [11, s. 23]. Ordubadda Naxçıvandan fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Toxuculuq sənətində Ordubadın xalçaçıları və bez parça hazırlayanları ustalıq baxımından heç də Naxçıvan sənətkarlarından geridə qalmırdılar. Ordubad və ümumiyyətlə, Naxçıvan diyarında toxunan parçalara xarici bazarda da böyük ehtiyac duyulurdu. Azərbaycanın digər bölgələrində olduğu kimi, Ordubadda da qeyri-adi gözəlliyə malik zərif, dəqiq və gözəl işləməli parçalar istehsal olunmuşdur. Ordubad da ümumiyyətlə, Naxçıvan diyarında toxunan parçalara xarici bazarda da böyük ehtiyac duyulurdu. Burada əsasən, xalça, ipək və bez parçalar toxunurdu.

XIII-XV əsrlər dövründə ipəkdən hazırlanmış sənətkarlıq məhsullarının da özünəməxsus əhəmiyyəti vardı. Hələ qədim dövrlərdən barama, ipək Azərbaycan torpağının sərvəti, şöhrəti olmuşdu. Məlumdur ki, Böyük İpək yolu vasitəsilə iki min il bundan əvvəl barama qurdu Çin ölkəsindən Mərkəzi Asiyaya, oradan İrana, sonra da Azərbaycana gətirilmişdir. Ərəblər Şərqdə Hindistan, Çin, Qərbdə İspaniya olmaqla geniş əraziyə hakimlik etdikləri dövrdə ipəkçilik təsərrüfatının sürətlə yayılmasında böyük rol oynamışlar. Bəzi ədəbiyyatlarda Cənubi Qafqazda, o cümlədən Azərbaycanda ipəkçiliyin yayılma tarixi VI-VII əsrlər göstərilir. Müxtəlif vaxtlarda bu yerlərdə olmuş tacirlər, səyyahlar, diplomatlar və s. Azərbaycanda ipəkçiliyin inkişafı haqqında söz açmışlar.

Hələ XIII əsrin ikinci yarısında Azərbaycanda olmuş venesiyalı səyyah Marko Polo Şamaxıda və Bərdədə yerli ipək məmulatlarının gözəlliyini qeyd etmişdir [13, s. 19]. Azərbaycanda səyyahın diqqətini daha çox cəlb edən gerçəklik ipəyin və ipək məmulatlarının bolluğu olmuşdur. Onun

Azərbaycanda ipəkçiliyin inkişafına dair qiymətli məlumatları ölkəmizin ipəkçiliyin mərkəzlərindən biri olduğunu sübut edir. Qeyd etmək lazımdır ki, monqolların Azərbaycana gəlişi dövründə tərəzinin bir gözünə ipək, digərinə isə qızıl qoyulurmuş. Hətta, tarixin yaddaşında belə bir fakt qalır ki, monqollar ilk dəfə Azərbaycana gələndə gəncəlilər onları başlarından etmək üçün onlara çoxlu daş-qaş versələr də, əl çəkməyiblər, yalnız xeyli ipək alandan sonra çıxıb getmişlər [6, s. 26]. Monqol hücumları ipəkçiliyə ciddi ziyan vurdu, lakin onlar Azərbaycanda hakimiyyətdə möhkəmləndikdən sonra bu sahə sürətlə inkişaf etməyə başladı. X-XIII əsrlərin coğrafiyaşünasları və tarixçiləri toxuculuq sənayesinə nəzər yetirərkən Azərbaycanda şəhərlərin inkişafından bəhs etmiş, burada istehsal olunan müxtəlif növ ipək parçaları və qiymətli sapları qeyd etmişlər [6, s. 26]. Sonrakı dövrlərdə də ipəkçilik bir təsərrüfat sahəsi kimi tədricən əksər bölgələrimizdə inkişaf etmişdir. İpəkdən hazırlanmış qadın baş örtükləri içərisində kəlağayı və “naz-naz”, “qaz-qaz” adı ilə tanınan örtüklər xüsusilə geniş yayılmışdı.

XIII əsrin müəllifləri yazırlar ki. Naxçıvanın rənglənmiş ağac məmulatları çox gözəldirlər, belə ki, bu əşyalardan bütün dünyada hədiyyə kimi istifadə edirdilər. Naxçıvanlılar ağac məmulatlarını naqqaşlamaqda mahir ustadırlar. Naxçıvanda hazırlanan toxuculuq məmulatlarından ipək, parça, nazik örtüklər və s. geniş yayılmışdır [3, s. 11]. Qədimdən ipəkçiliyin vətəni olan Ordubadda əhali çoxlu xam ipək istehsal edirdilər. Burada ipəkdən nəfis parçalar hazırlanırdı. Bu parçalar Rusiya və Avropa bazarlarında yüksək qiymətləndirilirdi. İpəkçilik şəhər əhalisinin əsas məşğuliyyət sahələrindən biri və başlıca qazanc mənbəyi idi. Şəhərdə yaşayan bir çox ailələr demək olar ki, ipəkçiliklə məşğul olurdular. Geyim materialları içərisində yun və ipək parçalar əsas yer tuturdu. Naxçıvan-Ordubad zonasında qadınlar tuman geyirdilər ki, həmin tumanlar müxtəlif ölçülərdə [5-12 taxta – S.H] naxışlı ipək və ya yun parçalardan tikilirdi. Qadın bel üst geyimi olan tumanlar ipək və yun parçalardan tikilirdi. Naxçıvan-Ordubad zonasından başqa digər bölgələrdə geyinilən tuman topuğa qədər olurdu. Üst tumandan başqa onun altından geyinilən ara tumanları da var idi. Tumanlar büzməli və yaxud qırçınlı olub lifəsinə tumanbağı keçirilirdi. Bütün bu sadaladığımız nümunələr milli qadın geyim dəstini təşkil edirdi. Geyimdə olan tikmə elementləri, zinət əşyaları, baş örtükləri, ayaq geyimləri qadın geyim dəstinin tamamlanmasında mühüm əhəmiyyət kəsb edirdi [8, s. 54].

Həmçinin, o dövrdə bəzi şəhərlərdə qadınlar küçəyə çıxarkən çaxcur geyir (qadınların geydikləri balağı büzməli enli şalvar növü – S.H.) və çarşaba bürünürdülər. Çaxcur və çarşablar əsasən müxtəlif çeşidli ipək parçalardan hazırlanırdı. Kişilər çuxa geyirdilər. Çuxanın qondarma qolunun astarı ipək parçadan tikilirdi. O dövrdə tirmə və ipək parçalardan hazırlanan üzəri əksər hallarda güləbətin tikməli araqçınlar çox geniş yayılmışdı. Həmçinin, corablar ipək və yun saplardan toxunurdu. Bölgənin zərif kəlağayısı, qanovuz parçası dünya şöhrəti qazanmış, xarici bazarlarda özünəməxsus yer tutmuşdur. Azərbaycan, o cümlədən də Naxçıvan qadınlarının bağlama (örtmə) baş geyimlərinin bir qismini də “kəlağayı” təşkil edirdi. Burada yaşa və zövqə uyğun olaraq qırmızı, qara, ağ, palıdı yerli, yelənli kəlağayılar daha geniş yayılmışdır. Naxçıvanda yerli ipəklə bərabər, yüksək keyfiyyətinə görə dünya şöhrəti qazanmış Təbriz, Ərdəbil, Ərəş ipəyindən də istifadə edilirdi. Müxtəlif parçalardan kürləcə, don, çuxa, arxalıq, canamaz və çarşab tikilirdi. Naxçıvan, xüsusilə Ordubad etnoqrafik bölgələrində düzbucaqlı biçimli çarşaba üstünlük verilirdi. Qadın çarşabının rənginə görə onun sahibinin yaşını, sosial-iqtisadi vəziyyətini müəyyənləşdirmək mümkün idi. Belə ki, cavan qadınlar ağ (bəyaz), ahıl yaşlı qadınlar isə tünd rəngli çarşabdan istifadə edərdilər. Orta əsrlər dövrü Azərbaycan şəhərlərində toxuculuğun inkişafı ilə birgə boyaqçılıq işləri də inkişaf etməkdə idi.

**Şəhərlərin inkişafına ticarətin təsiri.** Bəhs olunan dövrdə ölkənin təsərrüfat həyatında feodal istehsal üsulu hökm sürdüyü üçün şəhərlərin iqtisadi bazasını əsas etibarı ilə sənətkarlıq və ticarət təşkil edirdi. Lakin ibtidai və kustar üsulla aparılan sənətkarlığa nisbətən ticarətin bir sıra üstünlüyü var idi. Əvvələn, sənətkarlar əsas etibarı ilə daxili bazarın ehtiyacını ödədikləri halda, tacirlər onların hazırladıqları əşyanı xarici bazarlara çıxarırdılar; ikincisi, sənətkarlıqla yalnız yerli sənətkarlar məşğul olduqları halda, ölkənin ticarətinin inkişafında yerli tacirlərdən (sövdəgərlərdən)

əlavə, xarici ölkələrin tacirləri də mühüm rol oynamışdır. Bəhs olunan dövrdə ölkənin təsərrüfat həyatında feodal üsul idarəsi hökm sürdüyü üçün şəhərlərin iqtisadi bazasını əsas etibarı ilə sənətkarlıq və ticarət təşkil edirdi. Lakin ibtidai və kustar üsulla aparılan sənətkarlığa nisbətən ticarətin bir sıra üstünlüyü var idi. Əvvələn, sənətkarlar əsas etibarı ilə daxili bazarın ehtiyacını ödədikləri halda, tacirlər onların hazırladıqları əşyanı xarici bazarlara çıxarırdılar; ikincisi, sənətkarlıqla yalnız yerli sənətkarlar məşğul olduqları halda, ölkənin ticarətinin inkişafında yerli tacirlərdən (sövdəgərlərdən) əlavə, xarici ölkələrin tacirləri də əhəmiyyətli rol oynayırdılar. Bütün bu amillər orta əsrlərdə şəhər təsərrüfatında ticarəti ön sıraya çıxarırdı [5, s. 26].

Səfəvilər dövründə Azərbaycanın şəhərləri arasında Naxçıvan şəhəri iqtisadi baxımdan da aparıcı yerlərdən birini tutmuşdur. Bu dövrdə şəhər özünün mühüm əhəmiyyətli ticarət və sənətkarlıq mərkəzi kimi rolunu qoruyub saxlamış və inkişaf etdirilmişdir. Mənbələrdən və ədəbiyyat materiallarından aydın olur ki, istər sənətkarlıq, istərsə də ticarət şəhər həyatının əsas iqtisadi bazasını təşkil edirdi. Müxtəlif ticarət yollarının kəsişdiyi şəhərdə çoxlu sayda bazarlar, dükanlar, sənətkar emalatxanaları və s. iqtisadi baxımdan əhəmiyyətli obyektlər var idi ki, onlar sənətkarlıq, kənd təsərrüfatı və ticarət mallarının alqı-satqısını genişləndirirdi [7, s. 104].

**Nəticə.** Naxçıvan XIII-XV əsrlər arasında əsas ticarət yolları boyunca yerləşən strateji mövqeyi və zəngin mədəniyyət tarixi ilə formalaşan canlı şəhər mərkəzi olmuşdur. Siyasi qarışıqlıqlara və xarici işğallara baxmayaraq, şəhər iqtisadi dayanıqlığı, memarlıq yeniliyi və mədəni müxtəlifliyi sayəsində əhəmiyyətini qoruyub saxlamışdı. Nəzərdən keçirilən dövr Naxçıvanın mədəni və iqtisadi mərkəz kimi rolunu vurğulayır, o dövrü xarakterizə edən şəhər həyatı regiondakı daha geniş dəyişiklikləri əks etdirir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakı: Elm, 1999, 584 s.
2. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 397 s.
3. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 96 s.
4. Dostiyev T. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2001, 53 s.
5. Əliyev F. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1964, 124 s.
6. Əzimli D. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı-XVII əsrin I yarısı). Bakı: Təhsil, 2012, 282 s.
7. Əliyev İ. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı: Elm və Təhsil, 2014, 224 s.
8. Hacıyeva S. Naxçıvanda sənətkarlıq (XII-XIX əsrlər). Naxçıvan: Əcəmi NPB, 2017, 184 s.
9. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
10. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.
11. Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Вakı: Elm, 2006, 400 s.
12. Гейдаров М. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку: Изд-во АН Азерб. ССР, 1967, 200 с.
13. Поло М. Книга Марко Поло / Перевод со старофранцузского текста И.П.Минаева. Москва: Географгиз, 1956, 376 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: hacyevasara@yahoo.com***

**Sara Hajiyeva**

## URBAN LIFE IN NAKHCHIVAN IN THE MIDDLE AGES

The article describes the development and formation of urban life in Nakhchivan during the Middle Ages. It is noted that during this period, the city of Nakhchivan, located at the intersection of important trade routes in the Caucasus, played a significant role in the economic, cultural and political development of the region. During this period, the Nakhchivan region did not fall behind other regions of Azerbaijan in terms of trade development. Moreover, it exhibited significant advancement, serving as a pivotal link between the East-West, North-South, and situated at the intersection of caravan routes. Naturally, the International Silk Road, which passed through the region, also played an essential role here. Between the 13th and 15th centuries, Nakhchivan flourished as a trade and cultural center. The presence of markets in the city of Nakhchivan created conditions for people to gather in one center. Thus, the process of urbanization was established.

**Keywords:** *Nakhchivan region, market relations, economy, trade relations.*

**Сара Гаджиева**

## ГОРОДСКАЯ ЖИЗНЬ В НАХЧЫВАНЕ В СРЕДНИЕ ВЕКА

В статье рассказывается о развитии и становлении городской жизни в Нахчыване в период средневековья. Отмечается, что в указанный период город Нахчыван, расположенный на пересечении важных торговых путей на Кавказе, сыграл значительную роль в экономическом, культурном и политическом развитии региона. В этот период Нахчыванская область по развитию торговли не отставала от других регионов Азербайджана и, более того, значительно продвинулась вперед, сыграв важную роль пункта, соединяющего Восток-Запад, Север-Юг и расположенного на пересечении караванных путей. Естественно, что Международный шелковый путь, проходивший через регион, также сыграл здесь немаловаж-ную роль. Между XIII и XV веками Нахчыван процветал как торговый и культурный центр. Наличие рынков в городе Нахчыван создавало условия для сбора людей в одном центре. Таким образом формировалась урбанизация.

**Ключевые слова:** *Нахчыванский регион, рыночные отношения, экономика, торговые отношения.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 20.02.2025**
**Son variant 18.03.2025**